# Sosial müdafiə sistemi elektronlaşdırılır



**_Dövlət başçısının apardığı islahatlar və həyata keçirilən proqramlara uyğun olaraq ölkədə sosial müdafiə tədbirləri ildən- ilə geniş vüsət alır. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq reallaşdırılan tədbirlər çərçivəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əhaliyə xidmətlərin elektron texnologiyalar üzərində qurulması sahəsində müvafiq addımlar atılıb. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixli fərmanına əsasən ölkəmizdə ilk dəfə olaraq əhalinin sosial reyestri kimi, "e-sosial" portalı istifadəyə verilib. Portal vətəndaşlara onlar barədə toplanmış sosial məlumatlara çıxış və yaranmış hüquqları müqabilində məşğulluq xidmətlərindən, sosial təminat növlərindən və s. çevik rejimdə yararlanmaq, eyni zamanda, yaranan sosial-əmək hüquqlarının təminatı prosesinə daimi nəzarət etmək imkanı qazandırıb._**

Bu günədək artıq portalın aktiv istifadəçi sayı 150 minə çatıb. Portala baxış sayının isə 1 milyon 500 mini ötdüyü bildirilir. Qeyd edək ki, ölkəmizdə ilk proaktiv xidmət kimi 2019-cu ilin əvvəlindən pensiyaların avtomatlaşdırılmış qaydada təyinatı mexanizminə keçilib. On beşə yaxın sosial müavinət və təqaüd növü üzrə də "e-təyinat" sistemləri hazırlanaraq istifadəyə verilib, habelə 15-dək "e-arayış" xidməti işə salınıb. Gələn il də bir sıra yeni "e-təyinat" sistemləri və "e-arayış" xidmətləri istifadəyə veriləcək. Yaxın vaxtlarda DOST mərkəzlərindəki 132 xidmətin 91-nin elektronlaşdırılması nəzərdə tutulur. Bu işlər yekunlaşandan sonra "e-sistem"lər hər bir vətəndaş üçün fərdi sosial proqram formalaşdıracaq. Orada vətəndaşın məşğulluq, sosial təminat və s. imkanları müəyyən edilərək onlara təkliflər göndəriləcək. Nazirliyin müxtəlif sahələr üzrə yaratdığı elektron sistemlərin bir məqsədi də budur ki, nəticədə hər bir vətəndaşın fərdi sosial proqramı yaradılsın.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2019-cu ildə 21 sosial təminat növü üzrə elektron təyinat sistemi qurularaq işə salınıb. Belə ki, ötən ilin əvvəlindən yaşa və əlilliyə görə pensiya növlərinin təyinatı avtomatlaşdırılmaqla, il ərzində daha 19 müavinət – təqaüd növü üzrə "e-təyinat" sistemləri də fəaliyyətə başlayıb. Onların sırasına uşağın doğulmasına görə birdəfəlik müavinət, əlilliyə, yaşa görə və sağlamlıq imkanları məhdud uşağa, şəhid ailəsi üzvlərinə, şəhidlərin, müharibə əlillərinin, 20 Yanvar əlillərinin, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət, şəhid ailələrinə, həmçinin fəxri adlara görə Prezidentin aylıq təqaüdü və s. kimi müavinət və təqaüd növləri daxildir. Ötən il 15 mindən çox şəxsə elektron qaydada pensiya, son aylarda fəaliyyətə başlayan "e-təyinat" sistemləri vasitəsilə isə artıq 20 mindən çox şəxsə müavinət – təqaüd təyin edilib.

Ümumilikdə, 2019-cu ildə qurulan elektron sistemlər il ərzində sosial təminat növləri üzrə 200 minədək təyinatın elektron qaydada həyata keçirilməsinə imkan verir. Nazirlik tərəfindən 2019-cu ildə 21 sosial təminat növü üzrə təyinatın elektronlaşdırılması təmin edilib. Bunlar yaşa görə əmək pensiyası; əlilliyə görə əmək pensiyası; uşağın doğulmasına görə birdəfəlik müavinət; sağlamlıq imkanları məhdud uşağa aylıq müavinət; sağlamlıq imkanları məhdud 18 yaşadək uşağa qulluğa görə Prezidentin aylıq təqaüdü; əlilliyə görə aylıq müavinət; müharibə əlillərinə Prezidentin aylıq təqaüdü; 20 Yanvar əlillərinə Prezidentin aylıq təqaüdü; I dərəcə əlilliyə görə müavinət hüququ olanlara Prezidentin aylıq təqaüdü; I dərəcə əlilliyə görə pensiya hüququ olan şəxslərə Prezidentin aylıq təqaüdü; bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı sosial yardımı almaq hüququ olan) aylıq müavinət; müharibə əlillərinin uşaqlarına aylıq müavinət; 20 Yanvar əlillərinin uşaqlarına aylıq müavinət; Çernobıl qəzası ilə əlaqədar I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqlarına aylıq müavinət; fəxri adlara görə Prezidentin aylıq təqaüdü; Prezidentin fərdi təqaüdü; şəhidin uşaqlarına aylıq müavinət; şəhid ailəsi üzvlərinə aylıq müavinət; müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət; şəhid ailəsi üçün Prezidentin təqaüdü; yaşa görə müavinətdir.

Bu sosial təminat növlərinin elektronlaşdırılması il ərzində pensiya, müavinət və təqaüdlər üzrə 200 minədək təyinatın elektron şəkildə, proaktiv qaydada, yəni vətəndaşların hər hansı bir ünvana getmələrinə və sənəd təqdim etmələrinə ehtiyac olmadan həyata keçirilməsinə imkan verir.

Prezident İlham Əliyevin 16 dekabr 2019-cu il tarixdə təsdiqlədiyi yeni qanunlar əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət etməklə, eyni zamanda, sosial təminat sisteminin təkmilləşdirilməsində növbəti addım oldu. Əgər bu ilin əvvəlinədək qadınlar (yaşa görə pensiya hüququ olmadıqda) yaşa görə müavinət hüququnu 62 yaşda, kişilər (yaşa görə pensiya hüququ olmadıqda) isə 67 yaşda qazanırdısa, bu ilin əvvəlindən bu yaş həddi pensiya hüququ yaranan yaş həddi ilə eyniləşdirilir.

Beləliklə, 2020-ci il yanvarın 1-dən qüvvəyə minən yeni qanunla hazırda yaş həddi 61 il 6 ay olan qadınlar və yaş həddi 64 il 6 ay olan kişilər (yaşa görə pensiya hüquqları olmadıqda) bu ayın 1-dən yaşa görə müavinət hüququ qazanıblar.

Yaşa görə müavinətin təyinatı ötən il elektronlaşdırılıb. Bu müavinətin təyin edilməsi üçün hər hansı quruma müraciət etməyə və sənəd təqdim olunmasına ehtiyac yoxdur. Vətəndaşa elektron təyinat və müavinətin hansı bankdan alınması barədə bildiriş SMS vasitəsilə göndərilir. SMS göndərilməsi üçün adına nömrə yoxdursa, vətəndaş məlumatı nazirliyin 142 – Çağrı mərkəzindən və ya nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun yerli şöbəsindən alır.

Yeni qanunvericiliyə görə, beş və daha çox uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadınların yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi hər uşağa görə 1 il azaldılır. Misal üçün, beş uşaq doğub onları səkkiz yaşınadək tərbiyə etmiş qadının yaşı indi 56 yaş yarımdırsa və pensiya hüququ yoxdursa, ona yaşa görə müavinət təyin edilir. Uşaqların sayı 6 olduqda bu yaş göstəricisi 55 yaş yarım, 7 olduqda 54 yaş yarım həddinə enir. Sağlamlıq imkanları məhdud uşağını səkkiz yaşınadək tərbiyə etmiş anaların da yaşa görə müavinət hüququ qazanmaq üçün yaş həddi 5 il azaldılır.

Eləcə də ana vəfat etdiyinə və ya ana ilə nikaha xitam verildiyinə, yaxud ana valideynlik hüququndan məhrum edildiyinə görə 5 və daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına səkkiz yaşınadək böyüdən ataların, habelə 5 və daha çox uşağı övladlığa götürüb təkbaşına səkkiz yaşınadək böyüdən ataların, həmçinin 5 və daha çox uşağı səkkiz yaşınadək böyüdən qəyyum kişilərin yaş həddi 5 il azaldılmaqla müavinət hüququ yaranır.

Bu günlərdə "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər"in təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2012-ci il 4 sentyabr tarixli 189 nömrəli qərarında dəyişiklik edilməsi barədə" qərar qəbul edilib. Qərarla "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair tələblər"ə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təklifinə əsasən "İnternet informasiya ehtiyatlarının əlilliyi olan şəxslər üçün müyəssərliyinə dair tələblər" əlavə edilib. Həmin hissədə bildirilir ki, əlilliyi olan şəxslərin informasiya ehtiyatlarından səmərəli şəkildə faydalanması və istifadəsi məqsədilə internet informasiya ehtiyatının müyəssərliyi "WCAG (Web Content Accessibility Guideline) 2.1" (Veb məzmunun müyəssərliyinə dair təlimat) beynəlxalq standartına uyğun təmin edilməlidir. İnternet informasiya ehtiyatının müyəssərliyi aşağıdakı tələblərə uyğun olmalıdır: mətn olmayan kontent üçün mətn alternativləri, audio və videokontentlər üçün transkript, altyazılar, böyük şriftlərdən istifadə, şrift seçimi imkanları, rənglərin idarə olunması, simvollararası məsafə təmin edilməlidir; zamanın tənzimlənməsi funksiyasının yaradılması, kontenti oxumaq və istifadə etmək üçün istifadəçilərə kifayət qədər vaxtın təmin edilməsi, proseslərin klaviaturadan idarə olunması mümkünlüyü, animasiyalı şəkillərin deaktiv edilməsi funksiyasının icra olunması, kontentin aydın və ardıcıl olması təmin edilməlidir; oxunaqlı və başa düşülən dildən (üslubdan) istifadə olunmalıdır; kontentin cari və sonradan yaradılan müxtəlif istifadəçi veb-brauzerlər və yardımçı texnologiyalar ilə tam uyğunluğu təmin edilməlidir.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***